Azərbaycan Respublikası
Mərkəzi Bankı İdarə Heyətinin
“19“ aprel 2023-cü il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 19
D/reyestr № 458

# TƏMİNATSIZ BANKLARARASI PUL BAZARINDA BENÇMARK DƏRƏCƏSİ (AZIR - AZERBAIJAN INTERBANK RATE) ÜZRƏ İNDEKSLƏRİN HESABLANMASI VƏ AÇIQLANMASI QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar maliyyə bazarı iştirakçıları tərəfindən manatla maliyyə alətləri üzrə faiz dərəcələrinin müəyyənləşdirilməsində istinad rolunu oynaya bilməsi üçün Blumberq ticarət platformasında bağlanılmış əqdlər üzrə Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra - AMB) tərəfindən indekslərin hesablanması qaydasını müəyyən edir.

1.2. Təminatsız Banklararası Pul Bazarında Bençmark Dərəcəsi (bundan sonra – AZIR –Azerbaijan Interbank Rate) təminatsız bazarda banklar arasında milli valyutada əməliyyatların orta çəkili faiz dərəcəsini əks etdirir.

1.3. AZIR indeksi təminatsız pul bazarında istinad faizi rolunda çıxış edə bilən göstəricilərdən biridir.

## 2. İndekslərin hesablanması

2.1. AMB AZIR indeksindən pul siyasətinin əməliyyat məqsədlərinə nail olmasının effektivliyinin ölçülməsi göstəricilərindən biri kimi istifadə edir. Bazar iştirakçıları pul bazarında müxtəlif əqdlərin bağlanması zamanı AZIR indeksindən istifadə edə bilərlər, lakin bunu etmək məcburi xarakter daşımır.

2.2. AZIR indeksinin hesablanması üçün AMB tərəfindən aşağıdakı tədbirlər görülür:

2.2.1. Hər ticarət gününün sonunda Blumberq ticarət platformasından gün ərzində bağlanılmış əqdlər barədə məlumatlar əldə edilərək bağlanılmış əqdlərin siyahısı formalaşdırılır. Siyahıya daxil edilən əqdlər aşağıdakı tələblərə cavab verməlidir:

2.2.1.1. əqdlər Azərbaycan Respublikasında fəaliyyət göstərən kommersiya bankları arasında bağlanmalıdır;

2.2.1.2. əqdlər Blumberq platforması vasitəsilə bağlanmalıdır;

2.2.1.3. əqdlər indekslərin hesablandığı əməliyyat günü ərzində bağlanmalıdır;

2.2.1.4. əqdlər yalnız milli valyutada bağlanmalıdır.

2.2.2. Müddəti 1-3 gün arası olan əqdlər əsasında hesablanmış indekslər 1D AZIR, müddəti 6-8 gün olan əqdlər əsasında hesablanmış indekslər 1W AZIR, müddəti 13-15 gün olan əqdlər əsasında hesablanmış indekslər 2W AZIR, müddəti 29-32 gün olan əqdlər əsasında hesablanmış indekslər 1M AZIR, müddəti 85-95 gün olan əqdlər əsasında hesablanmış indekslər 3M AZIR, müddəti 170-190 gün olan əqdlər əsasında hesablanmış indekslər 6M AZIR, müddəti 260-280 gün olan əqdlər əsasında hesablanmış indekslər 9M AZIR, müddəti 355-375 gün olan əqdlər əsasında hesablanmış indekslər 12M AZIR adlanır.

2.2.3. AZIR indeksi yekun siyahıda mövcud olan əməliyyatların həcminin orta çəkisi nəzərə alınmaqla aşağıdakı düstur əsasında hesablanır:

$$AZIR = \frac{\sum_{i=1}^{n} m_i * v_i}{\sum_{i=1}^{n} m_i}$$

*Burada:*

AZIR *– orta çəkili faiz indeksi;*

*n – bu Qaydaların 2.2.1-ci yarımbəndində qeyd olunan tələblərə cavab verən əməliyyatların sayı;*

$m_i$ *– əqdin məbləği;*

$v_i$ *– əqdin faiz dərəcəsi (faizlə).*

## 3. İndekslərin açıqlanması

3.1. AZIR indeksləri ən geci müvafiq əməliyyatların aparıldığı günün növbəti iş günü saat 10.00-dək hesablanır. AMB-nin İdarə Heyətinin qərarı ilə indekslər rəsmi internet səhifəsində açıqlana bilər.

3.2. AMB-nin İdarə Heyətinin qərarı ilə indekslərlə yanaşı AMB-nin internet səhifəsində bu Qaydaların 2.2.1-ci yarımbəndində qeyd olunan tələblərə cavab verən əqdlərin ümumi məbləği və əqdlərin sayı da açıqlana bilər.

3.3. AZIR indekslərinin hesablanmasının mümkün olmadığı hallarda bundan öncəki tarixdə hesablanmış indeks həmin günə də şamil edilir. 10 ardıcıl təqvim günündən çox

müddətə indekslərin hesablanmasının mümkün olmadığı hallarda öncəki tarixə müəyyən edilmiş indeksin növbəti günə şamil edilməsi dayandırılır.

## 4. İndekslərin Hesablanmasına Nəzarət Komissiyası

4.1. İndekslərin bu Qaydalara uyğun hesablanmasına nəzarət edən və tərkibi 5 (beş) nəfər olmaqla AMB nümayəndələrindən ibarət İndekslərin Hesablanmasına Nəzarət Komissiyası (Komissiya) yaradılır. Komissiyanın üzvləri AMB sədrinin Sərəncamı ilə müəyyən edilir.

4.2. Hər ticarət gününün sonunda və ya növbəti günün əvvəlində AZIR indekslərinə dair ümumi məlumatlar elektron poçt vasitəsilə Komissiya üzvlərinə təqdim olunur.

4.3. Komissiya üzvləri bir sıra əməliyyatların, o cümlədən icra olunmamış, bağlanıldığı zaman texniki səhvlərə yol verilmiş, kəskin dəyişkənlik göstərən (məsələn, AMB-nin faiz dəhlizinin dəyişmədiyi dövrlərdə sonuncu hesablanmış AZIR indeks göstəricisinə nəzərən 50%-dən çox fərqlənmə), faiz dərəcəsi müvafiq maliyyə alətinin bazar şərtlərinə açıq şəkildə uyğun gəlməyən əməliyyatların məlumatların təqdim olunduğu gün ərzində indeksin hesablanması üçün tərtib olunan siyahıdan çıxarılması və indeksin yenidən hesablanması təşəbbüsü ilə elektron poçt vasitəsilə çıxış etmək hüququna malikdir.

4.4. Komissiya üzvlərindən birinin təşəbbüsü ilə bu Qaydaların 4.3-cü bəndində göstərilən hallarla bağlı qərar qəbul etdikdə bu qərar protokollaşdırılır və qərarın səbəbləri protokolda göstərilir. Bu hallarda qaldırılan məsələlərə dair qərar bir iş günü ərzində Komissiya üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir Komissiya üzvü bir səs hüququna malikdir. Üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda Komissiya sədrinin səsi həlledici sayılır.

4.5. Zərurət olduqda Komissiya indekslərin hesablanması qaydasına dəyişikliklərlə bağlı təkliflər verə bilər.

## 5. Yekun müddəalar

Bu Qaydalar təsdiq olunduğu gündən qüvvəyə minir.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**